# Əlamətdar günün möhtəşəm bəyanı

***Azərbaycanın Mədəniyyət Paytaxtı əziz Şuşada bir il öncə – 15 iyun 2021-ci ildə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı. Bu cümlənin özü bir dastanı ifadə edir. Cümlədəki sözlər yalnız bitmiş bir fikri ifadə etmir, fikrin qanadlarını, hərəkətin üfüqlərini, açılmamış səhifələri, toxunulmamış imkanları göstərir.***



## Türkün yenilməz gücü – dünyaya ismarıcdır

Şuşa Bəyannaməsi türkün ulu qüvvətini, yenilməz gücünü göstərir.

Əlbəttə, Azərbaycanla Türkiyə Şuşa Bəyannaməsi imzalanana qədər də qardaş idi, dost idi, qonşu idi. Bu sənəd o qardaşlıq, dostluq və qonşuluğu yeni tarixi mərhələyə, Zirvəyə daşıdı. Zirvə sənəd məhz Zirvə şəhərdə də imzalanmalı idi! Rəmzlər dəqiq, zamanlama yerində! Əhatəli mətn, xəlqi istəklər, sarsılmaz inam və açıq, aydın yol! Şuşa Bəyannaməsinin anlatdıqları budur! Həmin bəyanname əzəli, əbədi qardaşların dosta da, dost ola bilməynlərə də – bütün dünyaya parlaq ismarıcıdır.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın 2021-ci il iyunun 15-də əziz Şuşada imzaladığı bəyannamə iki qardaş ölkənin tarixi münasibətlərinin yeni mərhələsinin əsasını qoydu. 44 günlük müharibədəki tarixi Zəfərimiz bölgədə yeni gerçəkliklər yaradıb və bu yeni həqiqətlər fonunda ən fundamental hüquq, siyasət və diplomatiya əsərlərinin başında Şuşa Bəyannaməmiz gəlir! Dost və qonşu ola bilməyənlər üçün yeni gerçəkliklər nəyi ifadə edirdisə, bir də Şuşa Bəyannaməsini oxumalı olacaqlar. Bir dəfə deyil, təkrar - təkrar oxusunlar. Oxusunlar ki, bəlkə qəflətdən (qələtdən) ayıldılar. Bu bölgədə Azərbaycan və Türkiyənin razı olmadığı, qol qoymadığı heç bir böyük iş görülə bilməz. Görülsə, qalıcı olmaz və o işi görənlərin sərf etdikləri vəsait batar.

Bəli, Şuşa Bəyannaməsi müttəfiqliyimizin geostrateji (geopsixoloji, geoiqtisadi və o miqyasda daha nə ola bilərsə, hər bir əməli fəaliyyətin!) önəmini artırır.

Azərbaycan və Türkiyənin əziz Şuşada dalğalanan möhtəşəm bayraqları ölkələrimizin sarsılmaz birliyinin parlaq nümayişidir. Müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin bütün əməli fəaliyyət müstəvilərində yüksəlişini təminetmə gücündədir. Bəyannamə birxətli yox, məhz çoxşaxəli müttəfiqliyin simvoludur.

Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyə münasibətlərini mənəvi müstəvidən rəsmən müttəfiqlik zirvəsinə ucaltdı. Bu, artıq yalnız müstəvi və ya mürəkkəb beynəlxalq münasibətlər relyefinin siyasi zirvəsi deyil, ruhun əngin fəzasıdır!

## Müttəfiqlik bağlarının əhatəsi genişdir

Qardaş, qonşu və dost ölkələrimiz arasındakı müttəfiqlik bağları siyasət, iqtisadiyyat, beynəlxalq əməkdaşlıq, enerji təhlükəsizliyi, nəqliyyat, ordu quruculuğu, mədəniyyət, təhsil və digər strateji sahələri (yəni, bütün əməli fəaliyyət sahələrini!) əhatə edir.

İmzalanmasının birinci ildönümünü "Şuşa ili"ndə qeyd etdiyimiz Şuşa Bəyannaməsi bölgədə inteqrasiya proseslərinə güc qatır, ruh verir. Gələnilki ildönümündə Şuşa Türk dünyasının, bir sonrakı ildə İslam dünyasının və həmişə Azərbaycanın Mədəniyyət paytaxtı olacaq!

Şuşa Bəyannaməsi yalnız qardaşlara yol açmır, "3+3" platforması iştirakçıları daxil olmaqla, qonşuları, bütün yaxın – uzaq tərəfdaşları əmin – amanlığa, sülhə, tərəqqiyə çağırır.

Şuşa Bəyannaməsi bölgəyə yeni yatırımlara (sözün bütün anlamlarında) yol açır. Bəyannamə imzalanan gün dövlət başçımızın vurğuladığı kimi, bölgənin artan yatırım potensialı yeni iqtisadi münasibətlərin formalaşmasına səbəb olacaq. Tarixi Zəfərimizin və Şuşa Bəyannaməsinin dərk prosesi dərinləşdikcə, yatırımçılar daha böyük həvəs və inam nümayiş etdirir. İqtisadi investisiyaların önünü, necə deyərlər, bu işin fikir yatırımçıları açıb. Başqalarının görmədiyi, görməməzliyə vurduğu gerçəkliklər, imkanlar ölkə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən bir imza ilə təsbit olundu! Bakıda, Ankarada qanadlanan fikirlər Şuşada təcəlla etdi, Günəş kimi doğdu. Günəş doğuşunu, onun üfüqdə nazlanmasını, bütün dünyaya ədalətlə şəfəq saçmasını Şuşada görmək, Şuşadan görmək bir başqadır!

Bəyannamə ədalətli sülh çağırışıdır

Şuşa Bəyannaməsində nəzərdə tutulan hərbi işbirliyi isə yeni müharibəni deyil, tam əksinə, sülhü – ədalətli sülhü ifadə edir. Bu ifadəlilik, "əvəzçıxma" axtarışında olanlara və onların açıq - gizli dəstəkçilərinə kübarca xəbərdarlıqdır: Ağlınızı başınıza yığın! Dəmir yumruq yerindədir! Daha doğrusu, artıq Azərbaycana kəc baxanların başına dəmir yumruqlar qoşa enəcək! Biz əzəldən bilirik ki, Ermənistan heç vaxt öz gücünə arxalanmayıb, həmişə üç və daha artıq himayədarına arxalanaraq quduzluq edib. Ağlı başında olanlar anlamalıdır ki, 30 illik ağır işğal dönəmində Azərbaycana nəyisə diktə edə bilməyənlər, qalib Azərbaycana, Şuşalı və Şuşa Bəyannaməli Azərbaycana heç nəyi qəbul etdirə bilməzlər! İndi bircə yol var: Azərbaycanla hesablaşmaq, onun Yol xəritəsini qəbul etmək, yeni gerçəkliklərə uyğun davranmaq! Ya belə edəcəklər, ya da indi qaldıqları ərazilərdən rədd olub gedəcəklər! Ozan Arif demiş, "Başqa yolu yox artıq!"

***Əkbər QOŞALI***

Xalq qəzeti .- 2022.- 17 iyun.- S.5.